BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2006

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN BEYNƏLXALQ TƏŞKİLAT KİMİ YARANMASI ZƏRURİLİYİ VƏ ƏHƏMİYYƏTİ, AZƏRBAYCAN RESPUBLİKASININ MDB-yə QƏBULU

**H.H.ƏLİYEV**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitutu*

SSRİ-nin sonuncu prezidenti Mixail Qorbaçovun həyata keçirdiyi bədnam «yenidənqurma» planı ölkənin dağılmasına, iqtisadi, siyasi və sosial problemlərin getdikcə dərinləşməsinə səbəb oldu. Yalnış yarıtmaz siyasət nəticəsində Qazaxıstanda, Gürcüstanda, Azərbaycanda baş vermiş qanlı hadisələr, xarici qüvvələrin həmin dövrlərdə daha da fəallaşmaları SSRİ-nin süqutunu daha da sürətləndirdi.

Azərbaycanın qədim torpağı olan Qarabağın dağlıq hissəsində yaşayan erməni şovinistlərinin Ermənistanla birləşmək şüarları ilə nümayişlərə, sonralar isə təxribatlara başladıqları 1988–1989-cu illərdə vəziyyət daha da gərginləşməyə başladı. Mixail Qorbaçov milli zəmində közərməkdə olan bu ocağı ermənipərəst siyasəti ilə alovlandırdı.

Ölkə rəhbərliyinin bir-birinin ardınca buraxdığı səhvlər Mərkəzdən narazılığı gücləndirdi. Nəticədə 1990-cı il yanvar ayının 20-də Bakıda qırğın baş verdi. M.Qorbaçovun göstərişi ilə Sovet Ordusu hissələri vəziyyəti normallaşdırmaq, lazımi tədbir görmək üçün Dağlıq Qarabağa yox, Bakıya göndərildi. Həmin gün heç bir günahı olmayan 131 Azərbaycan vətəndaşı – qadın, kişi, qoca, uşaq, yeniyetmə qətlə yetirildi.

Yaranmış vəziyyət Bakı ilə Moskva arasındakı münasibətləri kəskin surətdə pisləşdirdi.

1991-ci il dekabr ayının 8 – də SSRİ dağıldı. Bundan əvvəl 15 respublikadan üçü Pribaltika ölkələri (Latviya, Litva və Estoniya Respublikaları) SSRİ tərkibindən çıxaraq öz müstəqilliklərini elan etmişlər. Qalan respublikalar isə SSRİ dağıldıqdan sonra öz müstəqilliklərini elan etdilər.

SSRİ-nin süqutundan sonra yeni bir qurumun yaranması zərurəti meydana çıxdı. Uzun illər eyni iqtisadi məkanda yaşayan, iqtisadi cəhətdən bir-biri ilə sıx tellərlə bağlı olan müstəqillik əldə etmiş dövlətlərdə çətinliklər yarandı. Bu və ya digər çətinlikləri nəzərə alaraq ilk dəfə Slavyan ölkələri – Rusiya, Belorusiya və Uk-

rayna arasında, sonradan isə qalan ölкələrlə, yəni Müstəqil Dövlətlər Birliyinə daxil olmaq istəyən ölкələrlə birgə müqavilə imzalandı.

Beləliкlə, 21 deкabr 1991-ci il tarixdə Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində (hazırda paytaxt Astana şəhəridir) Azərbaycan, Belorusiya, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Moldova, Özbəкistan, Rusiya, Taciкistan, Türкmənistan və Uкrayna müstəqil dövlət başçıları Alma-Ata Bəyannaməsini imzalamışlar.

Bəyannamədə Müstəqil Dövlətlər Birliyinin dövlətləri:

- bir-biri arasında münasibətlər dövlət suverenliyinin və suveren bərabərliyin, öz müqəddəratını təyin etməк кimi ayrılmaz hüququn, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinin qarşılıqlı surətdə tanınması və onlara hörmət edilməsi, zor işlətməкdən və zor işlətməкlə hədələməкdən, iqtisadi və hər hansı digər təzyiq metodlarından imtina edilməsi, mübahisələrin dinc yolla aradan qaldırılması, insan hüquqlarına və azadlıqlarına, o cümlədən, milli azlıqların hüquqlarına hörmət bəslənilməsi, öhdəliкlərin və hamı tərəfindən qəbul edilmiş digər beynəlxalq hüquq prinsipləri və normalarının vicdanla yerinə yetirilməsi əsasında inкişaf etdiriləcəк demoкratiк hüquqi dövlətlər qurmağa çalışaraq; bir-birinin ərazi bütövlüyünü və mövcud sərhədlərin pozulmaz olduğunu qəbul edərəк və bunlara hörmət etməlidir;
- dərin tarixi кöкləri olan dostluq, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməкdaşlıq münasibətlərini möhкəmlətməyin xalqların ümdə mənafelərinə cavab verdiyini, sülh və təhlüкəsizliк işinə xidmət etdiyini bildirməlidir;
- vətəndaş sülhünü və millətlərarası həmrəyliyin saxlanılması üçün özlərinin məsuliyyətini dərк etməlidir;

Müstəqil Dövlətlər Birliyi yaradılması haqqında sazişin məqsədlərinə və prinsiplərinə tərəfdar olaraq bildirmişlər кi, Birliyin iştiraкçıları bərabərliк əsasında yaradılan və birliyin iştiraкçıları arasında sazişlərlə müəyyənləşdiriləcəк qaydalarda fəaliyyət göstərən əlaqələndirici təsisatlar vasitəsilə hüquq bərabərliyi prinsipi əsasında qarşılıqlı fəaliyyət göstərəcəкlər. Birliк nə dövlətdir, nə də fövqəldövlət qurumudur.

Bəyannamədə göstərilir кi, beynəlxalq strateji sabitliyi və təhlüкəsizliyi təmin etməк məqsədi ilə hərbi-strateji qüvvələrin birləşmiş кomandanlığı və nüvə silahına vahid nəzarət saxlanılacaqdır; tərəflər nüvə silahı olmayan və bitərəf dövlət statusuna nail olmaq yolunda bir-birinin səylərinə hörmətlə yanaşacaqlar. Müstəqil Dövlətlər Birliyi, onun bütün iştiraкçılarının razılığı ilə, кeçmiş SSRİ-nin üzvü olmuş dövlətlərin, habelə birliyin məqsədlərinə və prinsiplərinə tərəfdar olan digər dövlətlərin bu birliyə daxil olması üçün açıqdır. Ümumi iqtisadi məкan, Ümumavropa və Avrasiya bazarları yaradılması və inкişaf etdirilməsi sahəsində əməкdaşlığa tərəfdar olduğumuz təsdiq olunur.

Müstəqil Dövlətlər Birliyinin yaradılması ilə Sovet Sosialist Respubliкaları İttifaqı öz varlığına xitam verir.

Müstəqil Dövlətlər Birliyinin yaradılması ərəfəsində Azər-

baycan Respublikası Ali Soveti Milli Şurasının qərarı ilə: - 11 dekabr 1991-ci ildə Ukrayna və Belorusiya Respublikaları, 16 dekabr 1991-ci ildə isə Gürcüstan və Özbəkistan Respublikaları ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin əsasları haqqında müqavilə təsdiq edilmişdir.

Lakin imzalanmış bütün sənədlər kağız üzərində qalmış, münasibətlərin qurulması baxımından irəliyə doğru bir addım belə atılmamışdır. Ümumiyyətlə, SSRİ dağıldıqdan sonra Rusiya Federasiyası regionlarda öz nüfuzunu bərpa etmək məqsədi ilə ciddi manevrlər etməyə başladı. İqtisadi əlaqələrin, bank əməliyyatlarının pozulmasına tab gətirə bilməyən yeni yaradılmış müstəqil dövlətlərin bir çoxu, xüsusilə Belorusiya və Tacikistan Rusiya ilə münasibətlər qurmağa, hətta «rubl zonasına» daxil olmağa cəhd etdilər.

Azərbaycan isə iqtisadi və siyasi nüfuz baxımından balanslaşdırılmış müstəqil siyasət yeridərək Rusiyanın təsir dairəsindən çıxaraq, inkişaf etmiş dövlətlərə, xüsusilə Avropa ölkələrinə qoşulmaqla öz vəziyyətini getdikcə yaxşılaşdırmaq yolunu tutdu.

Dünyada gedən proseslər göstərir ki, Rusiya Federasiyası yenə də planetin ən qüdrətli nüvə silahı olan ölkəsi kimi qalmaqdadır. Bizimlə demək olar ki, 1988-ci ildən bəri müharibə aparan Ermənistanda Rusiyanın hərbi bazaları, 40 mindən çox əsgər heyəti vardır. Ölkənin şimal və cənub sərhədlərində müxtəlif ideyalara xidmət edən cərəyanların, keçmiş SSRİ-nin bərpa edilməsi tərəfdarlarının olması, habelə Rusiyanın güclü təxribat təcrübəsinin olması faktları həmişə nəzərə alınmalıdır.

Qərbin, xüsusilə ABŞ-ın MDB-nin daxilində Rusiyanın yenidən hakim dövlətə çevrilməsinin qarşısını almaq üçün gördüyü işlər hələlik istənilən nəticəni vermir. Qərbin təşəbbüslərinə baxmayaraq, MDB daxilində baş vermiş hər hansı köklü məsələni Rusiyanın birbaşa iştirakı olmadan həll etmək mümkün deyildir. Əksinə, prezident kreslosuna rusiyapərəst adamların əyləşdirilməsi Rusiyanın mövqeyinin möhkəmləndirilməsinə təminat verir.

Eyni zamanda aşağıdakı faktorları da nəzərdən qaçırmaq olmaz;

1. Rusiya daxilində sabitlik yaranmasa, federasiyaya daxil olan ayrı-ayrı dövlət qurumları olan; muxtar respublikalar, vilayətlər və diyarlar müstəqil dövlətlərə parçalana bilər. Elə buna görə də Rusiya MDB-yə daxil olan dövlətlərin beynəlxalq təşkilatlar tərəfindən tanınan ərazi bütövlüyünün saxlanılmasına tərəfdardır.
2. Rusiya qonşu MDB dövlətlərinə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinin hər hansı bir formasını təklif etməyi özünün hüququ hesab edir. Bu zaman qarşı tərəfə zor işlətməyi qeyri-mümkün sayır. Eyni zamanda onun təkliflərini qəbul etməyənlərə müxtəlif sanksiyalar tətbiq edir və onları cəzalandırır.
3. Rusiya Müstəqil Dövlətlər Birliyində hazırda mövcud olan iqtisadi, sosial və siyasi məsələlərə istinad edərək, onların bu qu-

rumdan ayrı yaşamaq imkanında olmadıqlarını sübut etməyə çalışır. Bəzən isə həmin ölkələrdə müxtəlif sahələrdə süni böhran yaratmağa səy edir.

4. Rusiya sabiq SSRİ vətəndaşlarının hamısına ikili vətəndaşlıq hüququ verilməsində maraqlıdır. Çünki, Rusiyadan kənarda, MDB ölkələrində 25 milyondan çox rus yaşayır.
5. Rusiya MDB dövlətlərinə iqtisadi inteqrasiya təklif edir və gələcəkdə hərbi inteqrasiyanın da mümkünlüyünü istisna etmir. Lakin indi açıq bildirmir ki, MDB ordusu dedikdə müəyyən kontingent nəzərdə tutulur, yoxsa Sovet Ordusunun yeni variantı. İkinci halda isə dövlət müstəqilliyindən danışmağa dəyməz.
6. Rusiya MDB ölkələrində rusların təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edir, bəzi hallarda hadisələrə silahlı müdaxiləni də istisna etmir.
7. Rusiya MDB dövlətləri ilə birgə elmi axtarış aparmaqda, qarşılıqlı surətdə mütəxəssislər hazırlamaqda maraqlıdır.

Azərbaycan dövləti özünün xarici siyasət strategiyasında göstərilən amilllərə xüsusi diqqət yetirməklə, öz müstəqilliyini qoruyub saxlamaq və möhkəmlətmək məqsədilə tarazlaşdırılmış müstəqil siyasət yeridilməsinə üstünlük verdi.

Yuxarıda göstərildiyi kimi, 1991-ci ilin dekabr ayından, 1993-cü ilin sentyabr ayına kimi Müstəqil Dövlətlər Birliyi ilə Azərbaycan dövləti arasında demək olar ki, heç bir əlaqə olmamışdır. Faktiki olaraq Azərbaycan Dövlətlər Birliyi üzvlüyünə 1993-cü il sentyabr ayında daxil olmuşdur. Azərbaycanın MDB-yə daxil olması respublikada heç də birmənalı qarşılanmamışdır. O vaxt ölkədə MDB-yə qarşı münasibət çox mənfi idi. Ayrı-ayrı dairələr, ziyalılar, siyasi partiyalar, xüsusilə müxalifət partiyaları Azərbaycanın MDB-yə daxil olmasını istəmirdilər. Onlar belə hesab edirdilər ki, Azərbaycan MDB-yə daxil olduqdan sonra müstəqilliyini itirəcək, başqa formada keçmiş quruluş bərpa olunacaq və s. Bütün bunların nəticəsində ictimaiyyətdə mənfi rəy formalaşdırılmışdır.

Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra bu sahədə də xüsusi iş görülmüş, radio və televiziyada, mətbuat səhifələrində, əmək kollektivlərində müzakirələr aparılmış, politoloqların, görkəmli ziyalıların çıxışları təşkil edilmişdir. Bir neçə dəfə bu məsələ parlament iclaslarında qaldırılmış, nəhayət aparılan səmərəli işlər nəticəsində ictimai rəydə müsbət dəyişikliyə nail olunmuşdur. Əhalinin böyük əksəriyyətində belə bir inam meydana gəlmişdir ki, Azərbaycanın MDB-yə daxil olması zəruridir. Çünki Respublika təklikdə iflic vəziyyətdən çıxa bilməz.

Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının Moskva şəhərində 24 sentyabr 1993-cü il tarixdə keçirilmiş iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən respublikamızın MDB-yə birləşdirilməsi barədə sənədlər imzalanmışdır. Bundan sonra Azərbaycanla MDB arasında münasibətlər qurulmağa başlamış, xüsusilə MDB tərkibinə daxil olan dövlətlər arasında ikitərəfli

əlaqələr, başlıcası isə iqtisadi əlaqələr yaranmışdı.

Heydər Əliyev 10 oktyabr 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimindəki çıxışında demişdir: «Mən Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Bİrliyinə daxil olmasını xüsusi qeyd etmək istəyirəm. Respublikada uzun müddət bu barədə müzakirələr getmiş və nəhayət, Azərbaycan MDB-yə daxil olmuşdur. Biz əminik ki, Azərbaycanın MDB-yə daxil olması respublikanın iqtisadiyyatının inkişaf etməsi üçün yaxşı şərait yaradacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Onu da qeyd etmək istəyirəm ki, bəzi dairələr Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar. Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və MDB-də iştirak etmək Azərbaycanın müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan müstəqil bir dövlət kimi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir... Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır».

Müstəqil Dövlətlər Birliyinə daxil olan 12 dövlətdən Ermənistandan başqa, bütün digər respublikalar ilə dövlət suverenliyi və iqtisadi müstəqillik nəzərə alınmaqla ikitərəfli iqtisadi və başqa sahələrdə münasibətlər qurulmuş və ardıcıl olaraq inkişaf edir.

Azərbaycan dövlətinin Müstəqil Dövlətlər Birliyi ilə münasibətlər yaratmasının əsas məqsədləri iqtisadi sahədə iqtisadi cəhətdən bir-birinə bağlı olmuş, sonradan məlum səbəblərdən dağılmış əlaqələri bərpa edib yaranmış iqtisadi çətinlikdən çıxmaq, xarici siyasətdə, - dövlət müstəqilliyini möhkəmlətmək, təhlükəsizliyin əsası kimi mehriban qonşular zolağı yaratmaq, dövlət quruculuğu və islahatların aparılması üçün əlverişli şəraiti təmin etmək, bərabərhüquqlu, qarşılıqlı-faydalı iqtisadi, siyasi, elmi-texniki və mədəni əlaqələr qurmaq olmuşdur.

Dövlətimizin MDB iştirakçısı olan ölkələrlə münasibətlərinin əsasını dünya birliyi tərəfindən qəbul edilmiş beynəlxalq norma və prinsiplər təşkil edir. Azərbaycan məhz bununla həmin ölkələrlə münasibətləri tənzimləməyə çalışır.

Azərbaycan dövləti MDB iştirakçısı olan ölkələrlə münasibətlərin diplomatik fəaliyyətin müxtəlif formaları ilə – yazışmalar, qarşılıqlı səfərlər, siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. sahələrə aid sənədlərin imzalanması, müzakirələr, konfranslar, məsləhətləşmələr şəklində saxlayır.

MDB iştirakçısı olan ölkələrlə Azərbaycanın münasibətlərinin çox böyük əhəmiyyəti vardır. Ötən illər ərzində bərabərhüquqlu münasibətlər qarşılıqlı fayda vermiş, MDB-ni bir qurum kimi möhkəmləndirmiş, qırılmış çoxsahəli əlaqələr bərpa edilmiş, xalqlar arasında mehriban münasibətlər yaranmışdır.

Müstəqil Dövlətlər Birliyi təşkil olunduğu 13 il ərzində xeyli iş görmüş, Birliyin üzvləri arasında əlaqələri genişləndirmək üçün bir sıra qurumlar yaratmış və onun işini təşkil etmiş, xüsusilə iq-

tisadi və mədəni sahələrdə müəyyən nailiyyətlərə nail olmuşdur. Laкin açıq deməк lazımdır кi, böhranlı, problemli və çətin inteqrasiya кimi Müstəqil Dövlətlər Birliyinin apardığı iş hələ də ürəкaçan deyildir. Müstəqil Dövlətlər Birliyində inteqrasiyanın zəif getməsi ilə yanaşı, habelə Moldovada Dnestryanı, Gürcüstanda gürcü-abxaz, Rusiyada rus-çeçen münaqişəsi, Ermənistanın işğalçılıq siyasəti – Qarabağ probleminin və s. bu кimi məsələlərin həll edilməməsi bu qurumun nüfuzunu aşağı salır.

**О НЕОБХОДИМОСТИ И ЗНАЧЕНИИ СОЗДАНИЯ СОДРУЖЕСТВА НЕЗАВИСИМЫХ ГОСУДАРСТВ КАК МЕЖДУНАРОДНОЙ ОРГАНИЗАЦИИ, ВСТУПЛЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В СОСТАВ СНГ**

**Г.Г.АЛИЕВ**

**РЕЗЮМЕ**

В этой статье говорится об общественно – политическом положении Азербайджана в 1990-х годах, о принятой декларации в целях образования СНГ, условиях декларации, а также фактическом участии Азербайджана в составе СНГ и его значении.

**ESTABLISHING INDEPENDENT (SOVEREIGN) STATE UNION AS INTERNATIONAL ORGANIZATION, THEIR NECESSITY AND IMPORTANCE, ACCEPT TO AZERBAIJAN REPUBLIC INTO INDEPENDENT STATE UNION (ISU)**

**H.H.ALIYEV**

**SUMMARY**

In the scientific article said social and political situation in Azerbaijan, in 1990 years, set up of declaration about Independent State Union, condition of declaration, treat of actual participant a importance of Azerbaijan into Independent State Union.